

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 189 (23.351)

*9 oktyabr 2019-cu il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qəpik


*Rəsmi xronika*

Oktyabrın 8-də Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-2" yaşayış kompleksinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kompleksdə yaradılan şərait barədə məlumat verilib. Bildirilib ki, təməli ötən ilin sentyabrında qoyulan bu kompleksdə, ümumilikdə, onmərtəbəli 13 bina ilə yanaşı, məktəb, uşaq bağçası, poliklinika, gimnastika, güləş və trenajor zalları, şahmat mərkəzi, market, iaşə obyektləri yaradılıb. Ərazidə, eyni zamanda istirahət parkı, uşaq əyləncə meydançası, eləcə də, 3 idman meydançası inşa olunub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Qobu Park-2" yaşayış kompleksindəki mənzillərdə yaradılan şəraitlə tanış olublar. Qeyd olunub ki, kompleksdə bir, iki, üç və dördotaqlı olmaqla, ümumilikdə, 1300 mənzil var. Bütün mənzillər zəruri inventarla təchiz edilib.

Sonra dövlətimizin başçısı və birinci xanım Xocalı rayonundan olan məcburi köçkün, şəhid ailəsi Fəridə Cabbarovanın mənzilində olub, onun ailə üzvləri ilə görüşüb söhbət ediblər.



## Nəqliyyatın dinamik inkişafı təmin edilib

***İqtisadi inkişafın təmin olunmasında nəqliyyat sahəsi mühüm rol oynayır. Muxtar respublikada bu sahənin inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü siyasət müasir nəqliyyat sisteminin yaradılmasını təmin etməklə yanaşı, ümumi inkişafı da sürətləndirmişdir.***



Son dövrlər müasir avtomobil yolları şəbəkəsinin yaradılması istiqamətində, həmçinin muxtar respublikanın xarici ticarət əlaqələrinin genişlənməsində, beynəlxalq yük və sərnişin daşımalarında mühüm rol oynayan, uzunluğu 87 kilometr olan Naxçıvan-Sədərək və uzunluğu 32,4 kilometr olan Naxçıvan-Culfa magistral avtomobil yolları yenidən qurularaq istifadəyə verilmişdir. Bundan əlavə, ötən dövrdə uzunluğu 88,8 kilometr olan Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolu da yenidən qurulmuşdur.

Culfa rayonunda uzunluğu 57,6 kilometr olan, 20 kəndi əhatə edən Çeşməbasar-Boyəhməd avtomobil yolu, Kəngərli rayonunda uzunluğu 39,2 kilometr olan, 5 kəndi əhatə edən Naxçıvan-Sədərək magistralı-Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi avtomobil yolu, Babək rayonunda uzunluğu 25,6 kilometr olan, 13 yaşayış məntəqəsini birləşdirən Hacıvar-Vayxır-Sirab avtomobil yolu, uzunluğu 25,4 kilometr olan, 7 yaşayış məntəqəsini birləşdirən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolu olmaqla, ümumilikdə, 2009-cu ildən 1 sentyabr 2019-cu il tarixədək muxtar respublikada 1198 kilometr uzunluğunda avtomobil yolları yenidən qurulmuşdur. Bundan əlavə, 65 körpünün tikintisi və ya yenidən qurulması başa çatdırılmış, 27 körpü isə təmir olunmuşdur.

Əhaliyə göstərilən nəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi və bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində Naxçıvan şəhərində şəhərdaxili marşrutlara yeni avtobuslar buraxılmış, rayon mərkəzlərinə və kəndlərə iritutumlu və rahat avtobuslarla gediş-gəliş təmin edilmişdir. Həmçinin ötən dövrdə Naxçıvan, Şərur, Ordubad, Culfa və Şahbuz şəhərlərində müasir avtovağzal kompleksləri, Naxçıvan şəhərində Avtobus Parkı istifadəyə verilmişdir.

Muxtar respublikada hava nəqliyyatının inkişafı istiqamətində ardıcıl tədbirlər aparılmış, yeni inzibati bina inşa olunmuşdur. Əhaliyə göstərilən xidmətlərin səviyyəsinin daha da yaxşılaşdırılması, təyyarə uçuşlarının təhlükəsizliyinin tam təmin edilməsi məqsədilə Şərq və Qərb terminalları istifadəyə verilmişdir. Yenidənqurma işlərindən sonra hava limanının illik sərnişin və yükdaşıma dövriyyəsi xeyli artmış, aerovağzal binasından istifadə edən sərnişinlərin sayı saatda 600 nəfərə çatdırılmışdır. Bundan əlavə, ötən dövrdə Şərur və Ordubad şəhərlərində aviakassa binaları istifadəyə verilmişdir.

Beynəlxalq Hava Limanında yüklərin təhlükəsiz daşınması və qəbulu istiqamətində karqo terminalı yenidən qurulmuş, maşın və mexanizmlər üçün qaraj kompleksinin yaradılması başa çatdırılmışdır.

Muxtar respublikada nəqliyyatın digər bir sahəsi olan dəmir yolunun inkişafı da diqqətdə saxlanılmış, infrastruktur yenidən qurulmuşdur. Bundan əlavə, dəmir yolu təsərrüfatı yeni sərnişin vaqonları ilə təmin olunmuşdur.

Həyata keçirilən tədbirlərin nəticəsi olaraq 2019-cu ilin yanvar-avqust aylarında muxtar respublikada nəqliyyat sektorunda 10 milyon 809 min 300 ton yük, 69 milyon 936 min 700 nəfər sərnişin daşınmışdır ki, bu da 2009-cu ilin müvafiq dövrü ilə müqayisədə 78,9 və 88,2 faiz çoxdur.

***Nəqliyyat sektorunda yük və sərnişin daşınması***




Yük və sərnişin daşınmasından, bütövlükdə, 38 milyon 680 min 200 manat gəlir əldə olunmuşdur. Bu da 2009-cu ilin müvafiq dövrü ilə müqayisədə 91,5 faiz çoxdur.

Əhali artımına uyğun olaraq muxtar respublikada müasir yol-nəqliyyat sisteminin qurulması, nəqliyyat sektorunun səmərəli idarə olunması istiqamətində bu sahəyə 2019-cu ilin yanvar-avqust ayları ərzində 60 milyon 504 min manatdan artıq vəsait yönəldilmişdir.

Cari ilin ötən dövründə Naxçıvan şəhərdaxili, Şərur rayonunun Kərimbəyli və Qışlaqabbas, Ordubad rayonunun Dəstə kəndlərində avtomobil yollarının yenidən qurulması başa çatdırılmışdır.

Naxçıvan şəhərində 400 yerlik avtomobil parkının tikintisi, Culfa-Ordubad magistral avtomobil yolunun, Culfa şəhərində avtomobil yolunun, Ordubad rayonunda Biləv-Tivi-Nürgüt, Şərur rayonunda Xətai-Yeni Havuş, Şərur şəhərinə giriş, Muğanlı, Muğancıq Mehrab, Alışar və Xələc, Babək rayonunun Kültəpə və Gülşənabad, Ordubad rayonunun Vənənd, Anaqut və Darkənd, Şahbuz rayonunun Türkeş kəndlərində və Badamlı qəsəbəsində avtomobil yollarının yenidən qurulması, Culfa rayonunun Ərəfsə kəndində körpünün bərpası davam etdirilmişdir.

Əhaliyə göstərilən nəqliyyat xidmətlərinin səviyyəsinin yüksəldilməsi istiqamətində cari ilin yanvar ayından



Naxçıvan-Bakı-Naxçıvan avtobus marşrutunda gecə reysləri fəaliyyətə başlamışdır. Bundan əlavə, iyul ayından başlayaraq Naxçıvan-Bakı-Naxçıvan marşrut xətti üzrə hərəkət edən sərnişin avtobuslarına tətbiq olunan gömrük nəzarətini sadələşdirmək məqsədilə Naxçıvan Şəhər Avtovağzal Kompleksində və Bakı Beynəlxalq Avtovağzalında gömrük nəzarəti zonaları yaradılmışdır. Bu da sərnişinlərin rahatlığının təmin edilməsinə, sərhədkeçmə prosesinin sürətləndirilməsinə və avtobusların mənzilbaşına daha tez çatmalarına imkan verir.

Şahbuz şəhərində aviakassa binasının tikintisi başa çatdırılmış, Naxçıvan Beynəlxalq Hava Limanında uçuş-enmə zolağının yenidən qurulması davam etdirilir. Beynəlxalq Mülki Aviasiya Təşkilatının qəbul etdiyi qərara əsasən cari ilin avqust ayının 15-dən etibarən Naxçıvan Muxtar Respublikasının Türkiyə üzərindən birbaşa hava dəhlizi açılmışdır.

"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin inzibati binasının əsaslı təmiri başa çatdırılmış, Naxçıvan stansiyasında polis şöbəsi üçün inzibati binanın, Culfa stansiyasında İstismar Vaqon Deposunun təmir sexinin tikintisi, inzibati binasının yenidən qurulması, Park "V" İdarəetmə Mərkəzinin əsaslı təmiri davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Minimum əmək pensiyasının məbləği artırılıb

Ölkə Prezidenti cənab İlham Əliyevin cari ildə təqdim etdiyi sosial islahatlar paketində pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi, bu məqsədlə pensiya artımı xüsusi yer tutur. Belə ki, dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında cari ildə əmək pensiyalarının minimum məbləğinin artırılması istiqamətində iki mühüm qərar qəbul edilib. Birinci dəfə cari il martın 1-dən əmək pensiyalarının minimum məbləği orta hesabla 40 faizədək artırılaraq 116 manatdan 160 manata çatdırılıb. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa edilmiş son dəyişikliklərdən sonra isə əmək pensiyasının minimum məbləğinin 25 faiz artırılaraq oktyabrın 1-dən 160 manatdan 200 manata çatdırılması təmin edilib.

Ölkə üzrə sosial sahədə həyata keçirilən islahatlar muxtar respublikamızda da uğurla tətbiq olunur. Ümummilli lider Heydər Əliyev ideyalarının layiqli davamçısı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun cəmiyyətin həssas qrupu sayılan pensiyaçılara göstərdiyi yüksək diqqət və qayğının nəticəsidir ki, onun bilavasitə tapşırıq və tövsiyələrinə uyğun olaraq artıq neçə illərdir, muxtar respublikada pensiya məbləğinin həcmində qeydə alınan artımların hesablanması və ödənişi hər ay vaxtından əvvəl başa çatdırılır.

Əmək pensiyalarının minimum məbləğinin son artımı muxtar respublika üzrə, ümumilikdə, 26 min 758 əmək pensiyaçısına şamil olunacaqdır. Onlardan 14 min 527-si yaşa, 10 min 93-ü sağlamlıq imkanları məhdudluğa, 2138-i isə ailə başçısını itirməyə görə aşağı məbləğdə əmək pensiyası alan şəxslərin pensiyalarının məbləği 200 manata çatdırılacaqdır. Bu da o deməkdir ki, 1 oktyabr 2019-cu il tarixdən 200 manatdan aşağı əmək pensiyası alan olmayacaqdır.

Bu artımların ödənilməsinin həyata keçirilməsinə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun büdcəsindən hər ay orta hesabla 772 min 300 manat əlavə vəsait yönəldiləcəkdir. Pensiyanın minimum məbləğinin artımı fond tərəfindən oktyabr ayının pensiya ödənişində qanunvericiliyə uyğun plastik bankomat kartları və poçt şöbələri vasitəsilə pensiyaçılara ödəniləcəkdir.

Əmək pensiyasının minimum məbləğinin növbəti dəfə əhəmiyyətli şəkildə artırılması Azərbaycan Respublikası Prezidentinin ***"2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır"*** bəyanatının əməli müstəvidə bir daha öz təsdiqini tapdığını göstərir.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Sosial Müdafiə Fondunun***
***mətbuat xidməti***

# Culfa Gömrük İdarəsi ötən 190 ildə

*Şərqlə Qərbin qovşağında, tarixi ticarət yollarının üzərində yerləşən Naxçıvanın iqtisadi həyatında tarixən Culfa şəhərinin mühüm rolu olmuşdur. Vaxtilə İrandan Gürcüstana, Şirvana və Dağıstana gedən karvan yolları Culfadan keçmiş, bu şəhər orta əsrlərdə dünya ipək ticarətinin mərkəzlərindən sayılmışdır. Tarixi sənədlərdə göstərilir ki, XVI əsrin II yarısında Culfa tacirləri Venesiya, Marsel, Amsterdam kimi Avropanın böyük sənaye və ticarət mərkəzləri ilə geniş əlaqələr qurmuşlar. Səfəvi şahı I Təhmasib tərəfindən Culfa tacirlərinə xarici ölkələrlə ipək ticarəti üçün inhisar hüququ verilmiş, ticarət hüququ əldə etmiş tacirlər Avropa ölkələri ilə münasibətlərdə şahın xüsusi nümayəndəsi kimi çıxış etmişdilər.*

“Gülüstan” və “Türkmənçay” sülh müqavilələrindən sonra – 1829-cu ildən etibarən Culfa şəhəri ərazisində – Araz çayı üzərindəki gediş-gəliş körpüsündə Rusiya və İran tərəfindən gömrük nəzarəti təşkil edilmişdir. Culfa Gömrük İdarəsinin əsası məhz həmin ildə qoyulmuşdur.

1831-ci il iyun ayının 3-də Rusiya Senatı tərəfindən qəbul edilmiş “Cənubi Qafqaz ölkəsində ticarət və gömrük işlərinin təşkili haqqında” Əsasnaməyə uyğun olaraq Azərbaycan ərazisində gömrük sahələri, o cümlədən Naxçıvan gömrük sahəsi yaradılmış, Xarici Ticarət Departamentinin 1 sentyabr 1831-ci il tarixli əmri ilə Azərbaycan ərazisində fəaliyyət göstərən gömrük orqanları Zaqafqaziya Gömrük Dairəsinə tabe etdirilmişdir. Qafqaz canişini Aleksandr Baryatinski tərəfindən 31 mart 1861-ci ildə təsdiq edilmiş “Qafqaz və Zaqafqaziyada Karantin-Gömrük Hissəsinin yenidən təşkili və idarə edilməsi barədə Əsasnamə”nin 4-cü paraqrafına görə, Mehridən İran sərhədinin qurtaracağına və Osmanlı imperiyası ilə sərhəd olan Ağrı dağına qədərki məntəqələr Naxçıvan gömrükxanasının ixtiyarına verilmişdir. Naxçıvan Karantin-Gömrük Kontoru 1885-ci ildə Culfa şəhərinə köçürülmüş və ötən əsrin 20-ci illərinə qədər orada fəaliyyət göstərmişdir.


Culfa, 1910-cu il. Araz çayı üzərindən bərədən istifadə.

1908-ci ildən Culfa dəmiryol qovşağının Zaqafqaziya dəmir yolları şəbəkəsinə qoşulması ilə Rusiya ilə İran arasında ticarət dövriyyəsi əhəmiyyətli dərəcədə artmışdır. 1915-ci ildə Culfadan Təbrizə ilk dəmir yolu çəkilmiş, Naxçıvan dəmir yolu ticarətində mühüm mərkəzə çevrilmişdir. Dəmir yolunun çəkilişindən sonra ticarət dövriyyəsi və iş həcmi artdığından Rusiya Maliyyə Nazirliyinin Gömrük Yığımları Departamentinin icazəsi ilə Culfa gömrükxanasına yeni bina tikilmişdir.

Naxçıvanın ictimai-siyasi və mədəni həyatında mühüm rol oynamış Kəngərlilər nəslinin nümayəndələri, o cümlədən Əsgər ağa Kəngərli, Əmirsuvar bəy Kəngərli, Baxşəli ağa Şahtaxtinski, Naxçıvan Vilayət Komitəsinin İşlər müdiri olmuş Nəcəfqulu Nəcəfov, molla nəsrəddinçi Rzaqulu Nəcəfov müxtəlif illərdə Culfa gömrükxanasında xidmət etmişdilər.

XIX əsrin 40-cı illərində Culfa gömrükxanası vasitəsilə İrandan Rusiyaya il ərzində 1200-1300 gümüş manat həcmində ticarət edildiyi halda, XX əsrin əvvəllərində bu ölkələr arasında mal dövriyyəsi 800 min manata yaxın olmuş, Birinci Dünya müharibəsindən əvvəlki illərdə isə 7 milyon manata çatmışdır. İrəvan quberniyasının 1914-cü ilə aid icmalında qeyd olunur ki, həmin il İrandan gətirilən malların 84,7 faizi Culfa gömrükxanasının payına düşmüşdür.

Bu gömrükxana Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvanda qurulmuş Araz-Türk Cümhuriyyəti dövründə də fəaliyyətini davam etdirmiş, İranla iqtisadi-mədəni əlaqələrdə müstəsna əhəmiyyət kəsb etmişdir.

1920-ci ildən sonra sovet respublikalarının sərhədindəki gömrük məntəqələrinin ləğv edilməsi prosesi başlanılsa da, İranla geniş sərhəd xəttinə malik Naxçıvanda gömrük xidmətinin fəaliyyətinə diqqət artırılmışdır. Naxçıvan ərazisindəki gömrük orqanlarının işinin vahid mərkəzdən idarə olunmasını təmin etmək məqsədilə Naxçıvan İnqilab Komitəsinin 22 dekabr 1920-ci il tarixli Qərarı ilə Naxçıvan Rayon Gömrük İdarəsi yaradılmışdır. SSRİ Xarici Ticarət Xalq Komissarlığı tərəfindən 26 yanvar 1925-ci ildə təsdiq olunmuş Zaqafqaziya SFSR-dəki gömrük təşkilatlarının siyahısına nəzər saldıqda görürük ki, Azərbaycan ərazisində birinci dərəcəli 3 gömrükxana fəaliyyət göstərmişdir ki, onlardan biri də Culfa gömrükxanası olmuşdur. Həmin dövrdə İrəvan və Mehri gömrükxanaları Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının ərazisindəki Culfa Gömrük İdarəsinə tabe idilər.

1925-ci ildən başlayaraq Avropadan Batumiyə gətirilən malların tranziti üçün vahid lisenziya əsasında çox aşağı tariflər tətbiq olunmuşdur. Poti limanından dəmir yolu ilə Bakıya gətirilən mallar Culfadan keçməklə İrana daşınmışdır. Culfada SSRİ Xarici Ticarət Komissarlığının “Raznoeksport” adlı ümumittifaq ixrac-idxal birliyinin qəbul məntəqəsi, İranla ticarət əməliyyatlarında mühüm rola malik olan “Eksportxleb” adlı ümumittifaq birliyinin agentliyi fəaliyyət göstərmişdir. Sovet respublikaları ərazisindən quru yolu ilə daşınan mallar da İran bazarına Culfa gömrükxanasından keçməklə daxil olmuşdur.

Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarları Şurasının 19 dekabr 1928-ci il tarixli Qərarı ilə Culfa gömrükxanasının səlahiyyətinə sərhədi keçən sərnişinlərin, baqajların, yüklərin və nəqliyyat vasitələrinin müayinəsi və onların buraxılması, xarici ticarət inhisarçılığı haqqında qanunun yerinə yetirilməsinə faktiki nəzarət, qaçaqmalçılığın müəyyən edilməsi və tutulması, qaçaqmalçılıq barədə işlərin həll edilməsi, yük və sərnişinlərin dövlət sərhədini keçdiyi anda gömrük rüsum və yığımlarının hesablanması və tutulması kimi vəzifələr aid edilmişdir. Culfa gömrükxanasında İrandan qəbul edilən və həmin ölkəyə yola salınan tranzit yüklərə gömrük baxışının sürətləndirilməsi sahəsində görülən tədbirlər mərkəzi aparatın diqqətini cəlb etmişdir. Zaqafqaziya Gömrük İdarəsi tərəfindən 29 sentyabr 1927-ci il tarixdə yerli gömrük orqanlarına göndərilən məktubda Culfa gömrükxanasında əldə edilən müsbət təcrübədən istifadə edilməsi tövsiyə olunmuşdur.

1930-cu illərdə Azərbaycan sərhədlərindən keçməklə İrandan üçüncü ölkələrə göndərilən tranzit yüklərin 74 faizi Culfa gömrükxanasında qeydiyyata alınaraq Batumi limanına göndərilmişdir. 1935-ci il avqustun 13-də SSRİ ilə İran arasında ticarət müqaviləsinin imzalanması iqtisadi-ticarət əlaqələrinin həcminin artmasına səbəb olmuşdur.

1940-cı ildə Tehranla Təbriz şəhərləri arasında dəmir yolu əlaqəsinin yaradılması, Bakı-Culfa dəmir yolu xəttinin tikintisinin başa çatdırılması, 1941-ci ildə Culfa-Mincivan və Osmanlı-Astara dəmir yolu xətlərinin istismara verilməsi ilə yük və sərnişin daşımaları daha da artmışdır. İkinci Dünya müharibəsi illərində həyati əhəmiyyət daşıyan yüklər, o cümlədən müttəfiq dövlətlərdən daxil olan hərbi və humanitar yardımların əsas hissəsi bu gömrük orqanında yoxlanılmış və rəsmiləşdirilmişdir. Müharibədən sonrakı illərdə də Culfa gömrükxanası xarici ticarət dövriyyəsində və tranzitdə öz əhəmiyyətli mövqeyini qoruyub saxlamışdır.





Ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə gəldikdən sonra xarici ticarət əlaqələrinin genişləndirilməsi, gömrük nəzarəti və dövlət sərhədinin mühafizəsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Ulu öndər 1970-1980-ci illərdə böyük uzaqgörənliklə Azərbaycanda gömrük işinin inkişafına, bu sahədə ixtisaslı milli kadrların hazırlanmasına diqqətlə yanaşmış, milli kadrlar SSRİ-nin müxtəlif ali təhsil ocaqlarına oxumağa göndərilmişdir. Dahi rəhbər Heydər Əliyev 1980-ci ildə Azərbaycanın bütün cənub dövlət sərhədi boyu yerləşən sərhəd və gömrük-buraxılış məntəqələrinə səfəri çərçivəsində Culfa gömrükxanasının əməkdaşları ilə də görüşmüşdür. Arxiv sənədləri ilə tanışlıq zamanı aydın olmuşdur ki, istər çar Rusiyası, istərsə də Sovet imperiyası dövründə digər gömrük orqanlarımız kimi, Culfa gömrükxanasında da əsas vəzifələrdə azərbaycanlıların xidmət etməsinə imkan verilməmiş, mərkəz tərəfindən hər vəchlə yerli peşəkar kadrların yetişməsinin qarşısı alınmışdır. 1970-ci ildən başlayaraq azərbaycanlı məmurlar Culfa gömrükxanasında yüksək vəzifələrə irəli çəkilmişlər.

190 yaşlı Culfa sərhəd-keçid məntəqəsi əsl inkişaf dövrünü məhz Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən və ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə inkişaf və tərəqqi yoluna qədəm qoyduqdan sonra yaşamışdır. Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərin əvvəlləri Azərbaycan, xüsusən də Naxçıvan üçün son dərəcə ağır və məşəqqətli dövr kimi tarixə düşmüşdür. Mənfur Ermənistanın həyata keçirdiyi işğalçılıq siyasəti nəticəsində blokada vəziyyətinə düşərək məhv olmaq təhlükəsi ilə üz-üzə qalan bu qədim yurd yerinin xilası ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri nəticəsində mümkün olmuşdur.

1991-ci ilin oktyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin şəxsi təşəbbüsü və qətiyyəti sayəsində İran İslam Respublikası ilə əldə olunmuş razılığa əsasən bu ölkənin ərazisindən keçməklə Azərbaycan Respublikasının əsas ərazi vahidi ilə əlaqə yaradılmışdır. Culfa gömrük sərhəd-buraxılış məntəqəsi blokada vəziyyətində yaşayan Naxçıvan üçün Azərbaycanın əsas ərazi vahidinə açılan rəmzi qapıya çevrilmişdir.

1993-cü ildə Culfa rayonu ərazisində Azərbaycan-İran müştərək bazarının açılması ilə Culfa gömrük sərhəd-buraxılış məntəqəsinin muxtar respublikanın sosial-iqtisadi inkişafındakı rolu artmış, bu gömrük orqanının xidmətindən istifadə edən vətəndaşların sayı çoxalmışdır.

Azərbaycanın ən qədim gömrük orqanlarından olan Culfa Gömrük İdarəsi daim dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunmuşdur. 2007-ci ilin yanvar ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı ilə Culfa gömrük sərhəd-buraxılış məntəqəsi üçün yeni kompleks istifadəyə verilmiş, yüksək iş və xidmət şəraiti yaradılmışdır. İnzibati bina ilə sərhəd-keçid məntəqəsinin vahid kompleks halında inşa olunması nəticəsində idarəetmə təkmilləşdirilmişdir. Sərnişinlər üçün giriş-çıxış zalları, yük xətti, platforma və anbar binaları müasir formada qurulmuş, Naxçıvandan Bakıya və əks-istiqamətdə hərəkət edən sərnişin avtobuslarının və minik nəqliyyat vasitələrinin qeydiyyatı və gömrük baxışı üçün ayrıca xətt formalaşdırılmışdır. Sonrakı illərdə gömrük infrastrukturunun yenilənməsi üçün işlər görülmüş, maddi-texniki baza daha da möhkəmləndirilmişdir. Gömrük sahəsində hüquqpozmalara qarşı daha effektiv mübarizə aparılmasına nail olmaqdan ötrü ən müasir texniki nəzarət vasitələri, o cümlədən əl yüklərinin və avtonəqliyyat vasitələrinin yoxlanılması üçün rentgen-nəzarət qurğuları, şübhəli şəxslərin müayinəsi üçün “body-scan” alınıb quraşdırılmış, kinoloji xidmətin fəaliyyəti təmin olunmuşdur.

Muxtar respublikamızın digər gömrük orqanları kimi, Culfa gömrük sərhəd-buraxılış məntəqəsində də iş prosesi “bir pəncərə” prinsipi əsasında tamamilə avtomatlaşdırılmış, avtonəqliyyat vasitələrinin sürətli keçidinin təmin olunması üçün “Sərhədkeçmə vaxtının ölçülməsi sistemi”, yoluxucu xəstəliklərin qarşısının alınması üçün dezinfeksiya baryeri və radiasiya əleyhinə qurğular quraşdırılmışdır. Culfa gömrük sərhəd-buraxılış məntəqəsinin ərazisində rüsumsuz ticarət mağazasının da fəaliyyəti təmin olunmuşdur.

Muxtar respublikanın xarici ticarət əlaqələrində Araz çayı üzərindəki Culfa-Culfa körpüsünün müstəsna rolu və əhəmiyyəti nəzərə alınaraq yeni körpü tikilmiş və 2011-ci ilin iyun ayında istifadəyə verilmişdir.

Bu gün muxtar respublikamızın iqtisadi və milli təhlükəsizliyinin qorunmasında, qaçaqmalçılıq və gömrük sahəsində digər hüquqpozma hallarına qarşı mübarizədə, ticarət və tranzitin artmasında, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycan Respublikasının əsas ərazi vahidi arasında yük və sərnişin dövriyyəsinin həyata keçirilməsində Culfa gömrük sərhəd-buraxılış məntəqəsinin xüsusi rolu vardır. Muxtar respublikamızın İran İslam Respublikası ilə yanaşı, Çin, Birləşmiş Ərəb Əmirlikləri və digər Asiya ölkələri ilə ticarət əlaqələri də 24 saatlıq iş rejimində fəaliyyət göstərən bu gömrük orqanı vasitəsilə aparılır.

*190 illik tarixə malik olan Culfa Gömrük İdarəsi müstəqil ölkənin milli gömrük orqanı kimi özünün əsl inkişaf və tərəqqi dövrünü yaşayır. Dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunan bu sərhəd-keçid məntəqəsi Azərbaycanın ən qocaman gömrük orqanlarından biri kimi həm də Naxçıvanın son ikiəsrlik tarixini yaşadır.*

**Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti**

## Quruculuq işləri davam etdirilir



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində muxtar respublikamızın bölgələrində, o cümlədən Culfa rayonunda quruculuq tədbirləri intensiv şəkildə həyata keçirilir. Bu çərçivədə rayonun dəmiryol təşkilatlarını birləşdirən “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin Culfa Yük və Sərnişin Daşımaları İdarəsində də xeyli abadlıq və quruculuq işləri yerinə yetirilib. Hazırda Yük və Sərnişindaşıma İdarəsində yeni vaqon təmir sexi inşa olunur. “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin nasazlıqlar yaranan vaqonları artıq başqa ölkələrə göndərilməyib bu binada təmir olunacaq.

Rayondakı vaqon təmiri sexinin inzibati binası da əsaslı şəkildə yenidən qurulur. İş icraçısı Aydın Mərdanovdan aldığımız məlumata görə, lokomotiv depo üçün hər birinin uzunluğu 66 metr olan iki dəmiryol xətti yenilənib. Hazırda konstruksiyaların boyanması işi davam etdirilir, döşəməyə beton verilir. Vaqonların təmiri üçün qaldırıcı kranlar quraşdırılıb, elektrik xətləri yenilənib, sexin işıqlandırılması işləri başa çatdırılıb. Burada sahə rəisinin otağı, mexaniklər və çilingərlər üçün iş otaqları, eyni zamanda istirahət otaqları yerləşəcək. Hazırda obyektin ikinci mərtəbəsinə panellər döşənir. Birinci və ikinci mərtəbələrdə arakəsmələr hörülüb, çöl fasadın suvanması və dam örtüyünün vurulması işi aparılır. İnşaat işlərində, əsasən, yerli tikinti materiallarından istifadə edilir.

Tezliklə həyata vəsiqə qazanacaq hər iki obyektin tikilməsi burada çalışan işçilərin rahatlığına xidmət etməklə bərabər, həm də Culfa şəhərinə gözəllik verəcək.

**Alim AĞAYEV**

*(Əvvəli qəzetimizin 8 oktyabr tarixli sayında)*



Jurnalist araşdırması

# Bolşeviklərlə bitməyən mübarizə, Türkiyəyə məcburi gediş, İstanbulda yaşadılan Naxçıvan

30 sentyabr 2019-cu il. Artıq iki gündür ki, İstanbuldayam. Ancaq axtardığım insanlarla heç bir əlaqə yarada bilmirəm. Baş vermiş zəlzələ ucbatından hələ də mobil şəbəkələr fəaliyyətlərini bərpa edə bilməyib. Yaxşı ki əvvəlcədən götürdüyüm bir yaşayış binasının ünvanı var. Naxçıvanda olarkən öyrənmişdim ki, vaxtilə Mustafa xanın böyük oğlu Nəsrullah xan (Nasrullah Giray) ailəsi ilə burada yaşayıb. Həmin bina İstanbulun Kadıköy bölgəsində “Karakolhane caddesi” deyilən məşhur bir küçədə yerləşir. Oranı tapmaq üçün çətinlik çəkmirəm, binanın o məşhur adını (bir azdan deyəcəyəm) yoldan keçənlərin birindən soruşduqda, əli ilə yaxınlıqdakı pasajı mənə nişan verir. Yaşayış binasının birinci mərtəbəsi mağaza və xidmət sahələri olduğundan girişdəki dərzi yerinə üz tuturam. Yaşlı bir kişidir burada çalışan, hər halda 70-ə yaxın olar, – deyə düşünürəm. İçəri keçib salamlaşdıqdan sonra, buyurun, sizi eşidirəm, – deyir. Axtardığım insanları soruşuram. Diqqətlə məni süzüb suala sualla cavab verir: Naxçıvandan gəlmisiniz? Hə, – deyirəm. Bəs kimsiniz? Qohumlarındanam. Birdən-birə jurnalist olduğumu deyib işləri korlamaq istəmirəm. Bəlkə, danışmağa razı olmayacaq? Ancaq, deyəsən, yanılmışam. İki-üç kəlmədən sonra hiss edirəm ki, Nurəddin Polad adlı bu ixtiyar dərzi çox suyuşirin və söhbətkeş adamdır. Nasri bəyi (onu belə adlandırır) 1972-ci ildən tanıyıram, – deyə söhbətə başlayır. Yəni burada işləməyə başlayandan. Ailəsi, uşaqları ilə çox yaxın olmuşam. Ata-babaları o zaman Naxçıvanda sovetlərə qarşı ciddi mübarizə aparıblar. Sonra silahdaşları ilə bura – Türkiyəyə gəlməyə məcbur olublar. Atasını, babasını görməsəm də, oğlanları ilə, dediyim kimi, çox yaxın olmuşam. Həm də onlar bura gələndə ətraflarında yaxın silahdaşları da olub. Mən həmin insanlardan yalnız birini gördüm. Ad-soyadı Yaqub Əhmədov idi. O zamanlar Nasri bəyin yanına vaxt tapdıqca gəlib-gedərdi. Çünki Elazığda yaşayırdı. Nədənsə, qismət onu ora aparıb çıxarmışdı. Hətta orada bir otel də tikdirmişdi. Adı “Azər” oteli idi. 1992-ci ildə mən Elazığda olanda həmin otel fəaliyyət göstərirdi, ancaq indisindən xəbərim yoxdur. Sonra eşitdim ki, Yaqub da rəhmətə gedib. Bura – Türkiyəyə gələndə Nasri bəygilin bir fotoşəkli vardı, mənə göstərmişdi atası, babası ilə birgə. Bax həmin fotoda Yaqub da var idi gənc yaşlarında. Ancaq indi üstündən çox illər keçib, səhv etmirəmsə, övladları indi də Elazığda yaşayır.

Nurəddin dayının haqqında bəhs etdiyi fotoşəkil bir gün sonra məndə olacaqdı, yəni Fərəcullah və Mustafa xanların indiyədək saxlanılmış yeganə fotoşəkli. Onunla növbəti görüşümüzdə fotonu göstərsəm də, gənc Yaqubu orada tapa bilməyəcəkdi, daha doğrusu, tanıyıb göstərə bilməyəcəkdi. Ancaq Giray ailəsi ilə bağlı bizə xoş xatirələrini danışacaqdı, xüsusilə Nəsrullah xan Girayla bağlı. Amma biz indi, yenidən 90 il əvvələ qayıtmağa məcburuq, ona görə ki, Fərəcullah və Mustafa xanların, onların övladlarının Türkiyə həyatı məhz o illərdən başlayır...

***Zəruri qeyd:*** 1920-1930-cu illər Naxçıvan tarixinin ən ağrılı illəri olub. Sovet hakimiyyətinin bu torpaqlarda qurulması bolşeviklər üçün heç də asan başa gəlməyib. Məsələn, həmin dövrdə, xüsusilə 1920-ci ilin əvvəllərində erməni özbaşınalıqlarına qarşı böyük güclərin laqeyd münasibəti, XI qırmızı ordunun yerli sakinlər ilə sərt rəftarı, məcburi kollektivləşmə əhalinin hədsiz hiddətinə səbəb olmuşdu. Bunun nəticəsidir ki, 1921-ci ildə ilk dəfə Cəhrililər qiyam qaldırmışdılar, həm də bu qiyamın başında türk zabitləri dururdu. Həmin dövrdə qısa müddətə də olsa, üsyan edənlər Cəhridə sovet hakimiyyətini devirə bilmişdilər. Tezliklə bu qiyam Qaraçuq, Türkeş kəndlərində, Ordubad və Şərurda da baş vermişdi. Əhalinin üzərinə böyük vergilərin qoyulması, mülkiyyəti olanların torpaq, əmlak, heyvan və digər varidatlarının əllərindən alınaraq kollektivlərə verilməsi vəziyyəti daha dözülməz hala gətirib çıxarmışdı. Təkcə bunu demək kifayətdir ki, 1930-cu ilin əvvəllərində Şahbuzda cəmlənmiş 500-ə qədər silahlı kəndliyə qarşı hökumət nizami ordu hissələri yeritmişdi ***(Mənbədən seçmələr: Hüseynbəyli N.M, Behbudlu Q.N. “Naxçıvanda milli-mənəvi dəyərlərin repressiyalara məruz qalması” NDU-nun “Elmi əsərlər”i, Naxçıvan, 2012-ci il, №2).***

…Beləliklə, bir tərəfdən, bölgənin erməni hücumlarına məruz qalması, zorla sovetləşdirmə, xan və bəy nəslindən olanlara qarşı əhali arasında nifaq salınması, digər tərəfdən, sovetlərə qarşı belə güclü müqavimət Naxçıvanın hər yerində, o cümlədən indiki Kəngərli rayonunun ərazisində, həmçinin böyük yaşayış məntəqələrindən olan Qarabağlarda da özünü göstərirdi. Halbuki Qarabağlarda yaşayan və bizə məlum olan Fərəcullah və oğlu Mustafa xanların, sovetlərin apardığı yalan siyasətin əksinə olaraq əhali arasında böyük nüfuzu vardı. Hətta ötən yazıda da bəhs etdiyimiz kimi, Mustafa xan indiyədək mövcud olan öz mülkünün bir hissəsini məktəb kimi sovetlərin ixtiyarına da vermişdi. Lakin əhaliyə qarşı gündən-günə artan haqsızlıqlar onları da silaha sarılmağa məcbur etmiş, həm bolşeviklərə, həm də onların əlində oyuncağa çevrilmiş ermə-




ni daşnaklarına qarşı mərdliklə mübarizə aparmışlar. Artıq gündən-günə daha böyük vüsət alan bu tarixi proseslər sonda Kəngərli nəslinin bu qəhrəman nümayəndələrini də Naxçıvandan getməyə məcbur etmiş və onlar geri qayıtmaq ümidi ilə müvəqqəti olaraq Şahtaxtıdan İrana keçmişlər. Mustafa xanın nəvəsi Nizami Nadirovun dediklərindən:

– Babamgilin 1929-cu ildə müvəqqəti olaraq İran tərəfinə keçməsinə bir səbəb də Mustafa xanın xalası Zivər xanımın Şahtaxtı yaxınlığındakı Pörnəkdə yaşaması idi. Onlar burada bir müddət qalırlar və Naxçıvana geri dönməyə fürsət tapmırlar. Qısa müddətdə sovet sərhədlərinin çəkilməsi isə babamgilin vətənə qayıtma arzularının üstündən qalın xətt çəkir. Beləliklə, Mustafa xanın iki azyaşlı qızı – Həmidə və Lətifə Qarabağlarda qalır, özləri isə Türkiyəyə getməyə məcbur olurlar. Bu haqda əvvəlki yazılarda bəhs etdiyimizdən mövzuya təkrar toxunmuruq. Sadəcə, bunu əlavə etmək istəyirik ki, Lətifə xanım Cəlilkənddə, Həmidə xanım isə əvvəl qeyd etdiyimiz kimi Gəncədə deyil, Bakı şəhərində yaşayıb dünyasını dəyişir.



… İstanbulda bu nəslin davamçıları ilə bağlı görüşdüyüm insanlardan biri də əvvəlcədən adını çəkdiyim Mustafa xanın nəvəsi Leyla Giray idi. 69 yaşlı Leyla xanım Mustafa xanın böyük oğlu Nəsrullah xanın qızıdır. Deyir ki, atamgil 1929-cu ildə Naxçıvandan çıxanda bir müddət İranda qalmalı olurlar. Həmin dövrdə onların yanında bir türk zabiti də var imiş – Hüsnü Odabaşıoğlu. Rütbəsi general olan Hüsnü Odabaşıoğlu Qurtuluş Savaşının iştirakçısı olub, hətta İzmirin qurtuluşunda xüsusi xidmətlərinə görə təltif də olunub. Məhz həmin dövrdə Odabaşıoğlu Qars, İqdır, deyəsən, həm də Naxçıvan tərəfdə xidmət edirmiş, topçu imiş. O, babamgilin hansı şərtlər altında Naxçıvanı tərk etdiyini yaxşı bilirmiş, hətta birgə mübarizə apardıqlarını da deyə bilərəm. Atatürk, İnönü ilə yaxın silahdaş olan Odabaşıoğlu məhz həmin dövrdə Atatürkə məruzə edir ki, bəs Naxçıvandakı xan nəslindən olanlar öz yaxın adamları ilə birgə bolşeviklərlə sonadək mübarizə apardılar, bizə də çox köməkləri dəydi. Ancaq hazırda vəziyyət tamamilə dəyişib, sovetlərin onları hər an tapıb məhv etmələri ehtimalı var. Sizdən bir çıxış yolu tapmanızı xahiş edirəm. O zaman Atatürk də onların hamısının Türkiyəyə gətirilməsini istəyir və bu işi yenə də Odabaşıoğluna tapşırır. Beləliklə, atam, əmim, babam, babamın atası Fərəcullah xan və yanındakı silahdaşları general Hüsnü Odabaşıoğlunun – biz ona “Paşa Dədə” deyərdik, – rəhbərliyi altında Türkiyəyə köçməli olurlar.

Söhbətinə davam edən Leyla xanım deyir ki, atam Türkiyəyə gəldikdən sonra hərbiyyə məktəbində oxuyur, zabit olur, Türk Silahlı Qüvvələrində xidmət edir. General Hüsnü Odabaşıoğlu Mustafa xanı, atası Fərəcullah xanı yaxşı tanıyır, bilir ki, onlar Naxçıvanın əsilzadə xan nəslindəndirlər. Bu nəslin nümayəndələri oxumuş, təhsil görmüş insanlar olub. Buna görə də Mustafa xanın böyük oğlu – Nəsrullah xanın onun qızını istəməsinə etiraz etmir və qızı, yəni anam Vedia xanımı ona ərə verir. Atamgilin toyu 1944-cü ildə olur. Abbasqulu əmim də hərbiyyə məktəbində təhsil alır. O, tankçı olur, atam isə ordunun təchizat sahəsində xidmət edir. Hər ikisi mayor rütbəsində ordudan tərxis edilir. Əslində, atamın rütbəcə yüksəlmək imkanları da olur, ancaq bizim İstanbulda təhsil almağımız səbəbi ilə başqa yerə xidmətə getmir. Ailədə üç uşaq olmuşuq, – Leyla xanım söhbətinə davam edir:

– Məndən böyük qardaşlarım Gökhan, Özhan və mən. Nədənsə, onlar atam kimi hərb sənətini seçmədilər, ayrı-ayrı sahələrdə çalışdılar. Kiçik qardaşım Özhan 2009-cu ildə bir avtobus qəzasında dünyasını dəyişdi. Bundan 15 gün sonra isə anam Vedia xanım bu üzüntüdən vəfat etdi. 2016-cı ilin dekabr ayında isə böyük qardaşım Gökhan vəfat etdi… (ortalığa sükut çökür).

Bəs “Giray” soyadını necə oldu ki, qəbul etdiniz? – deyə soruşuram.

– Tam olaraq bilmirəm, atam götürmüşdü bu soyadı, bəlkə də krımlı Giray xandan təsirlənmişdi və yaxud… doğrusunu bilmirəm… Ancaq Abbasqulu əmim Quluxan soyadını qəbul etmişdi.



Bu dəfə sualı həmsöhbətim mənə ünvanlayır:

– Siz mənə atamın, əmimin 19-20 yaşlara qədər Qarabağlar kəndində yaşadığı evin şəklini göstərdiniz. Xatırlayıram ki, atamın dediyinə görə, babalarımızın bir evi də olub, hökumət adamlarının qarşılandığı yer. O ev indi qalırmı?

Biranlıq duruxuram, ancaq tez də yadıma düşür. Bəli, qalır, – deyirəm. O ev Naxçıvan xanlarının sarayı olub, indi muzey kimi fəaliyyət göstərir və qiymətli tarixi-memarlıq abidəsi kimi dövlət tərəfindən qorunur. Buna hədsiz dərəcədə sevinən Leyla xanıma söz verirəm ki, Naxçıvana qayıtdıqdan sonra Xan Sarayı Muzeyinin fotoşəkillərini ona göndərəcəyəm. Yeri gəlmişkən, Naxçıvanla bağlı ona bir xeyli məlumatlar da verirəm. Burada tarixə, mədəniyyətə verilən dəyərdən söhbət açıram və müsahibimi Naxçıvana dəvət edirəm. O isə çalışıb buna vaxt tapacağını deyir.

Günün sonu yaxınlaşdığından həmsöhbətimlə sağollaşıb oradan ayrılıram. Ertəsi gün günorta Naxçıvana qayıtmalı olduğum üçün bu görkəmli bir nəslin dünyasını dəyişmiş nümayəndələrinin – Fərəcullah xanın, Mustafa xanın və digərlərinin məzarlarını ziyarət edə, ən azından fotoşəkillərini yaddaşa köçürə bilmədiyim üçün çox təəssüflənirəm… Üréyimdə – qalsın növbəti səfərə, – deyirəm. Səhər tezdən isə “Karakolhane caddesi”ndə yerləşən binanın birinci mərtəbəsində Nurəddin əmi ilə ayaqüstü 10-15 dəqiqəlik söhbət etməyə vaxt tapıram. Mənə yenə də Nəsrullah xanın xeyirxahlığından, səmimiyyətindən, buradakı dost-tanışa mehriban münasibətindən, ən əsası isə doğulduğu Naxçıvan torpağına sevgisindən ağızdolusu danışır. Onunla xudahafizləşib çölə çıxıram və başımı yuxarı qaldırıb birinci mərtəbəsi ticarət və xidmət obyektləri, digər mərtəbələri isə kirayəlik ev kimi nəzərdə tutulmuş beşmərtəbəli binanın girişindəki yazılı lövhəyə bir daha baxıram… Nəsrullah xanın 1957-ci ildən bu günədək istanbullulara tanıtdığı məşhur “Naxçıvan pasajı”na…

**Səbuhi HƏSƏNOV**
**Naxçıvan-İstanbul-Naxçıvan**

Oxunması zəruri olan kitablar gənclərin gözü ilə

# Cəlil Məmmədquluzadənin *“Hekayələr”*i haqqında




Mən kitab oxumağı çox sevirəm. Çünki bilmədiyim, öyrənmək istədiyim hər bir məlumatı kitablardan əldə edirəm. Oxuduğum kitablar arasında təkcə dərsliklərim deyil, bədii kitablar da var. Çünki biz şagirdlərin hərtərəfli formalaşmasında bədii kitabların rolu əvəzolunmazdır. Elə bu məqsədlə təsdiq olunmuş “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil edilən əsərlər bizim üçün ən böyük örnəkdir. Bu siyahı, sanki biz məktəblilər üçün bir kitabxanadır.

Biz şagirdlər bu əsərləri oxuduqca Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrini, keçmiş, habelə indiki və gələcək nəsillər üçün öz əhəmiyyətini itirməyən, dərin mənə kəsb edən əsərlərin müəlliflərini yaxından tanıyırıq. Məsələn, mən bilirəm ki, Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatında ən görkəmli ədiblər sırasında olmuş, acgöz, yaltaq, savadsız və ədalətsiz insanları tənqid etmək məqsədilə bir sıra hekayələr, povestlər və dram əsərləri yazmışdır. Yazıçı cəhalət dərdinin yeganə dərmanını elmdə görürdü.

“Quzu” hekayəsində “Poçt qutusu”ndakı Novruzəli obrazının tam əksi olan Məmmədhüseynin çoxbilmişliyi ilə pul qazana bilməsinin o dövr üçün adi hal olmasından, “Sirkə” hekayəsində bir ədibin Bakıya gəlməsilə qarşılaşdığı hadisələr və onun buranın adət-ənənələrinə uyğunlaşa bilməməsindən, “Qurbanəli bəy” hekayəsində acgözlük, kobudluq rəmzi və əsl gülüş mənbəyi olan Qurbanəli bəyin alçaq həyat tərzindən bəhs olunur. “Saqqallı uşaq”, “Poçt qutusu” hekayələrini oxuduqca güclü yumor hissi ilə rastlaşdım. Bu əsərlərdə müəllif avam, zavallı insanların düşdükləri vəziyyətləri yumoristik şəkildə qələmə alsa da, əslində, onlara ürəkdən acıdığını, sevgi və mənəvi bağlılıq göstərdiyini dərk etdim.

Ədibin hekayələrini oxuduqca yeni kəndlərlə tanış oldum, bu kəndlərin reallıqda olmadığını, sadəcə, müəyyən mənalar ifadə etdiyini də öyrəndim.

Cəlil Məmmədquluzadənin əsərləri bu gün də böyük maraqla oxunur. Çünki ömrü boyu xalqının taleyi, düşüncə kasıblığı onu narahat edib. Mən əminəm ki, bizdən sonrakı nəsillər də Cəlil Məmmədquluzadənin hekayələrini sevə-sevə oxuyub öyrənəcəklər.

**Pərvin YUSİFLİ**
***Ordubad rayon Nüsnüs kənd tam orta məktəbinin IX sinif şagirdi***

***Ölkəmizdə rabitə və poçt sisteminin sürətli inkişafının təməli ötən əsrin 70-ci illərindən qoyulmuşdur. 1969-cu ildən başlayaraq ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə bu sahədə əsaslı dəyişikliklər baş vermiş, o dövrün tələblərinə uyğun poçt və rabitə sistemi yaradılmışdır. Müstəqillik illərində ulu öndərin rəhbərliyi ilə Azərbaycan poçtu ölkə iqtisadiyyatının digər sahələrində olduğu kimi sürətli inkişaf yolu keçmişdir.***



*9 oktyabr Ümumdünya Poçt Günüdür*

# Muxtar respublikada poçt sistemi müasir tələblər səviyyəsində qurulub

Naxçıvan Muxtar Respublikasının poçt-rabitə sistemi də özünəməxsus inkişaf yolu keçmişdir. 1996-cı ildən başlayaraq Naxçıvanda poçt xidmətlərinin keyfiyyəti mərhələ-mərhələ yüksəldilmiş, bu sahənin texniki imkanları genişləndirilmişdir. Ötən dövrdə həyata keçirilən ardıcıl tədbirlər nəticəsində poçt müəssisələri bütün növ xidmətlərin təşkili üçün müasir texnologiyalarla təmin edilmiş, xidmətin səviyyəsi yüksəldilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvanpoçt Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında" 2013-cü il 30 iyul tarixli Sərəncamı isə bu sahədə görüləcək işlərin miqyasını daha da genişləndirmişdir.

Muxtar respublikada son illər rabitə sahəsində əldə edilən sürətli inkişaf, fiber-optik xətlərinin çəkilməsi, yüksəksürətli kompüter şəbəkələrinin yaradılması, poçt sahəsində də xidmətlərin müasir tələblərə uyğun qurulmasına şərait yaratmışdır. Hazırda muxtar respublika ərazisində 1 mərkəzi poçt, 7 rayon filialı və 172 poçt bölməsi fəaliyyət göstərir. 2013-cü ildə "Naxçıvanpoçt"un muxtar respublikanı əhatə edən telekommunikasiya şəbəkəsi qurulmuş, Naxçıvan şəhərində Məlumatların Emalı Data Mərkəzi yaradılmışdır. Poçt məntəqələrində ənənəvi poçt xidməti ilə yanaşı, telefon haqlarının, elektrik, qaz, sudan istifadə haqlarının, Yeni Azərbaycan Partiyasının üzvlük haqlarının, Dövlət Sosial Müdafiə Fondunun, həmçinin bələdiyyə ödənişlərinin, Dövlət Yol Polisinin cərimələrinin qəbulu həyata keçirilir. Hökumət Ödəniş Portalının şəbəkəsinə qoşulmaqla Azərbaycan Respublikası üzrə bank, maliyyə, vergi və sairə təşkilatların ödənişlərinin qəbulunun poçt məntəqələrində həyata keçirilməsi təmin olub.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin tərkibində yaradılan yeni "Naxtel" 4G mobil operatoru ilə müqavilə bağlanılıb, nömrələrin və danışıq kartlarının satışının poçt şöbə və bölmələri tərəfindən həyata keçirilməsi təşkil olunub. Həmçinin pensiya ödənişlərinin avtomatlaşdırılması məqsədilə Naxçıvanpoçt MMC-nin mütəxəssisləri tərəfindən elektron bazalı proqram təminatı hazırlanıb. Hazırda bu xidmətdən pensiya alanların sayı 473 nəfərdir. Bundan əlavə, bələdiyyə rüsumlarının və Yeni Azərbaycan partiyasının üzvlük haqlarının yığılması üçün proqram təminatı hazırlanmışdır. Bu gün həmin proqram həm Naxçıvanpoçt, həm də sifarişçilər tərəfindən uğurla istifadə edilir. Həmçinin "Naxçıvanpoçt" MMC-nin şəhər, rayon və kənd bölmələrində sabit internet abunəçiləri üçün balansartırma və tullantı vəsaitlərinin qəbulu üçün proqram təminatı hazırlanıb işə salınıb. Poçt məntəqələrində nağdsız ödənişlərin təşkili üçün 176 POS-terminal qoyulub.





"Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin tərkibində 2014-cü ildə yaradılmış "Elektron İmzanın Sertifikat Xidməti Mərkəzi" fəaliyyət göstərir. Hazırda mərkəz tərəfindən 1721 elektron imza subyektinə xidmət edilir. Bundan əlavə, "Naxçıvanpoçt"un "İtmiş Əşyaların Sahibinə Çatdırılması Xidməti" və 225 qaynar xətti fəaliyyət göstərir. Bu xidmət rüsum tələb edilmədən humanitar məqsədlə yaradılıb. Vətəndaşlar "Naxçıvanpoçt"un *www.naxcivanpoct.az* internet saytının "İtirilən əşyaların qeydiyyatı" bölməsində fərdi qaydada tapdıqları yaxud axtardıqları əşyalar haqqında məlumatı yerləşdirə bilərlər. Tapılan əşya poçt xidməti vasitəsi ilə sahibinə çatdırılır.

Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında qaz və elektrik sayğacları smartkartlı sayğaclarla əvəz olunur və poçt məntəqələrində həmin kartlara balans yüklənməsi işi təşkil olunub. Bunun üçün Naxçıvan Şəhər Rabitə İdarəsinin texniki binasında server qoyulub, şəbəkəyə qoşulub, Naxçıvan şəhərində 18 poçt bölməsində və Babək Rayon Poçt Filialının mərkəzi şöbəsində yeni kompüterlər, kartoxuyucuları qurulub, elektrik və qaz təsərrüfatı ilə məşğul olan idarələrdəki kompüterlər də həmin şəbəkəyə qoşulub. Bütün sistemə "Naxçıvanpoçt" MMC-nin mühəndisləri tərəfindən xidmət edilir.

Naxçıvanda beynəlxalq poçtdaşımalarının həyata keçirilməsi üçün "Express Mail Servis" və "DHL" beynəlxalq ekspress poçt xidmətləri fəaliyyət göstərir. Bu da məktubların, sənədlərin və bağlamaların ən qısa zamanda ünvana etibarlı çatdırılmasını təmin edir. Müasir texnologiyalardan istifadə olunmaqla poçt göndərişlərinin hansı məntəqədə olduğunun internet üzərindən izlənməsinə imkan yaradılıb. Yaşadığımız XXI əsrin texnika və texnologiyaların yüksək mərhələsi və sürət əsri olduğu, əhalinin müasir poçt xidmətlərinə tələbatı nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində poçt xidmətlərinin dünya standartları səviyyəsinə uyğunlaşdırılması məqsədilə müvafiq tədbirlər ardıcıl şəkildə davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə muxtar respublikanın şəhər və kəndlərində quruculuq işləri aparılarkən poçt sahəsinin maddi-texniki bazası da möhkəmləndirilir, yeni rabitə evləri və poçt bölmələri istifadəyə verilir. Hazırda mövcud poçt bölmələrindən 174-ü ən müasir şəraiti olan yaraşıqlı binalarda fəaliyyət göstərir. Bu ilin sentyabr ayından Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamı ilə poçt işçilərinin əməkhaqları minimum əməkhaqqı nəzərə alınmaqla orta hesabla 25 faiz artırılıb. Bütün bunlar poçt sahəsində çalışanları daha səylə işləməyə sövq edir.

***"Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivi bundan sonra da səylə çalışacaq, yaradılan şəraitdən səmərəli istifadə edərək muxtar respublika sakinlərinə nümunəvi xidmət göstərəcək.***

***Naxçıvan Muxtar Respublikası***
***Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

# Naxçıvanda ilk futzal liqası keçirilir

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Futbol Federasiyasının təşkilatçılığı ilə ilk dəfə olaraq muxtar respublikada fəaliyyət göstərən dövlət və özəl təşkilatlar arasında futzal liqasına start verilib.***



Liqanı keçirməkdə məqsəd muxtar respublikanın dövlət və özəl təşkilatlarının əməkdaşları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi, futzal idman növünün kütləviliyinə nail olunması, eləcə də sağlam həyat tərzinin təbliğ edilməsidir.



Beynəlxalq futzal qaydalarına uyğun olaraq keçirilən liqada 23 komanda mübarizə aparır. İki dövrəlik futzal liqası 46 turdan ibarətdir. 599 görüşün keçiriləcəyi liqada komandalar hər qələbəyə görə aktivinə 3, bərabərliyə görə isə 1 xal əlavə edirəcək. Hər tur 11 oyundan ibarət olacaq. Əsasnaməyə görə hər oyun üçün 40 dəqiqə (20+20) vaxt verilir. Fasilə 5 dəqiqə olacaq. Oyunlar haqqında hər hansı qərar Futbol Federasiyasının İntizam Komitəsi tərəfindən qəbul olunacaq.

Artıq futzal liqasının püşkatma mərasimi keçirilib. Dünən isə Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində liqanın açılış görüşü olub. Açılış mərasimində çıxış edən Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov bildirib ki, bu gün muxtar respublikamızda idmanın kütləvi hal alması üçün mütəmadi olaraq yarışlar, turnirlər, çempionatlar təşkil edilir. Bunlardan biri də ilk dəfə olaraq keçirilən futzal liqasıdır.

Naxçıvan Futbol Federasiyasının sədr müavini Sakit Rzayev iştirakçı komandaları salamlayaraq bildirib ki, keçirilən liqanın əsasnaməsi futzal qaydalarına uyğun şəkildə hazırlanıb. Burada məqsəd futzalı muxtar respublikada kütləvi hala gətirməklə yanaşı, həm də təşkilatlar arasında dostluq münasibətləri qurmaqdır. Sakit Rzayev iştirakçıları liqa haqqında məlumatlandırdıqdan sonra ilk oyuna start verilib.

İlk dəfə təşkil olunan liqanın püşkatmasına əsasən meydana Dövlət Sosial Müdafiə Fondunun komandası ilə "Badamlı" komandası çıxıb. Oyunun birinci hissəsində birincilər üstünlüyü ələ alsalar da, bunu sonadək qoruya bilməyiblər. Görüş "Badamlı" komandasının 5:2 hesablı qələbəsi ilə başa çatıb.

Birinci turun digər görüşləri həftənin şənbə günü – oktyabr ayının 12-də keçiriləcək. Bu turda aşağıdakı komandalar qarşılaşacaq:

*Ədliyyə Nazirliyi – Sığorta Agentliyi*
*Türkiyə Konsulluğu – "Prestij"*
*Naxçıvanbank – Fövqəladə Hallar Nazirliyi*
*Penitensiar Xidmət – Dövlət Dəmir yolu*
*Təhsil Nazirliyi – Nəqşicahan Holdinq*
*Daxili Qoşunlar – Mərkəzi Bank*
*ƏƏSMN – Daşınmaz Əmlak Xidməti*
*"Ağbulaq" – Mədəniyyət Nazirliyi*
*Xarici İşlər İdarəsi – Nəqliyyat Xidməti*
*Antiinhisar – Hava Limanı*

Bu turda "Cahan Holdinq" komandası istirahət edir.

Qeyd edək ki, gələn ilin may ayında başa çatacaq liqada turnir cədvəlinin ilk üç pilləsini tutan komandalar təşkilatçılar tərəfindən mükafatlandırılacaqlar. Liqanın bütün görüşləri Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksinin zalında keçiriləcək.

**Ceyhun MƏMMƏDOV**

*Dünən Babək Rayon Mədəniyyət Sarayında Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illik yubileyi ilə əlaqədar yeniyetmələr arasında oxunması zəruri olan kitablar əsasında "Nə? Harada? Nə zaman?" intellektual oyununun Babək rayon birinciliyi keçirilib.*

# İntellektual oyunun Babək rayon birinciliyi başa çatıb



Əvvəlcə Gənclər və İdman Nazirliyinin əməkdaşı Valeh Mahmudov çıxış edərək bildirib ki, oyunun keçirilməsində məqsəd Naxçıvan Muxtar Respublikasında yeniyetmə və gənclərin intellektual fəaliyyətə cəlb edilməsi, onların intellektual səviyyəsinin, dünyagörüşünün, zehni inkişafının stimullaşdırılması, həmçinin oxunması zəruri olan kitabların gənclər və yeniyetmələr arasında təbliğ edilməsidir.

"Nə? Harada? Nə zaman?" intellektual oyunu 2 turdan ibarət olmaqla, hər turda 12 sual səsləndirilib. Sonda daha çox suala düzgün cavab verən komandalar qalib hesab olunublar.

Birincilikdə Yarımca kənd tam orta məktəbinin "Zəfər" komandası I, Babək qəsəbə 1 nömrəli tam orta məktəbin "Turan" komandası II, Hacıvar kənd tam orta məktəbinin "Qarabağ" komandası isə III yerə çıxıb. Sonda qaliblərə Gənclər və İdman Nazirliyi tərəfindən diplom, fəxri fərman və oxunması zəruri olan kitablar təqdim edilib.

Gənclər və İdman, Təhsil nazirliklərinin, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin, "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən birincilikdə 40-a yaxın yeniyetmə iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və***
***İdman Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 684